Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunun Müşahidə Şurasının 2009-cu il 25 noyabr tarixli iclasının qərarı ilə (Protokol №19) təsdiq edilmişdir

# Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına kreditlərin verilməsində müvəkkil kredit təşkilatı kimi iştirak etmək istəyən banklar və bank olmayan kredit təşkilatlarının Fondun Müşahidə Şurasına təqdim edəcəyi

# SƏNƏDLƏR

**Banklar üzrə:**

- Bankın nizamnaməsinin notarial qaydada təsdiq olunmuş surəti;
- Bankın Dövlət qeydiyyatına alınması haqqında şəhadətnamənin və Dövlət reyestrindən çıxarışın notarial qaydada təsdiq olunmuş surətləri;
- Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin notarial qaydada təsdiq olunmuş surəti;
- Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən bank, o cümlədən kredit əməliyyatlarının aparılmasına dair verilmiş xüsusi razılığın (lisenziyanın) notarial qaydada təsdiq olunmuş surəti;
- Bankın sonuncu hesabat ilində maliyyə vəziyyəti barədə audit rəyi;
- Bankın regional strukturu barədə Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən təsdiq olunmuş məlumat;
- Mərkəzi Bank tərəfindən müəyyən edilmiş prudensial normativlərə riayət etmələri barədə arayış.

**Bank olmayan kredit təşkilatları üzrə:**

- Bank olmayan kredit təşkilatının nizamnaməsinin notarial qaydada təsdiq olunmuş surəti;
- Bank olmayan kredit təşkilatının Dövlət qeydiyyatına alınması haqqında şəhadətnamənin və Dövlət reyestrindən çıxarışın notarial qaydada təsdiq olunmuş surətləri;
- Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin notarial qaydada təsdiq olunmuş surəti;
- Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən kredit əməliyyatlarının aparılmasına dair verilmiş xüsusi razılığın (lisenziyanın) notarial qaydada təsdiq olunmuş surəti;
- Bank olmayan kredit təşkilatının sonuncu hesabat ilində maliyyə vəziyyəti barədə audit rəyi;
- Bank olmayan kredit təşkilatının fəaliyyət dairəsi, kreditlərin verilməsi sahəsində təcrübəsi haqqında məlumat;
- Mərkəzi Bank tərəfindən müəyyən edilmiş prudensial normativlərə riayət etmələri barədə arayış.